UOT 336

Rafiq Məcid oğlu RZAYEV
AR ETN İqtisadiyyat İnstitutunun böyük elmi işçisi
rafiqrzayev74@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.004.365

İNNOVASİYA-İNVESTİSİYA FƏALİYYƏTİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – innovasiya-investisiya fəaliyyətinin əsas xüsusiyyətlərinin araşdırılması və risklərinin idarə edilməsi ilə bağlı aspektlərin müəyyənləşdirilməsidir.

Tədqiqatın metodologiyası – tədqiqat işində sistemli və digər yanaşmalardan, o cümlədən məntiqi ümumiləşdirmə və müqayisəli təhlil üsulundan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqatda əsaslı araşdırmalar innovasiya-investisiya fəaliyyətini stimullaşdıran amillərin müəyyənləşdirilməsinə, eləcə də bu fəaliyyət prosesində yaranan risklərin idarə edilməsinə şərait yaratmaq imkanına malikdir.

Tədqiqatın nəticələri – innovasiya-investisiya fəaliyyətinin inkişafına və risklərinin idarə edilməsinə təsir edən amillərin və onların formalaşması xüsusiyyətlərinin nəzəri baxımdan araşdırılması bir sıra nəticələrin əldə olunmasına gətirib çıxarır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – iqtisadi yüksəliş və sosial rifahın inkişafı, cəmiyyətin məhsuldarlığının və rəqabət qabiliyyətinin artırılması və ümumilikdə, iqtisadi tərəqqi üçün əhəmiyyətli olan innovasiya-investisiya fəaliyyətinin inkişaf aspektlərinin müəyyənləşdirilməsi və bu fəaliyyətin risklərinin idarə edilməsi araşdırmanın elmi cəhətdən aktuallığını müəyyən edir.

Açar sözlər: innovasiya-investisiya fəaliyyəti, risklərin idarə edilməsi, innovativ layihələr, vençur kapitalı, texnologiya, innovasiya-investisiya mühiti, insan kapitalı.

Giriş

Müasir dövrdə qloballaşma, rəqabətin sərtləşməsi və texnoloji dəyişikliklərin intensiv xarakter alması dövlətləri və şirkətləri davamlı inkişafa nail olmaq üçün innovasiya və investisiya faktorlarına üstünlük verməyə məcbur edir. İnnovasiya-investisiya fəaliyyəti iqtisadi artımın və sosial rifahın mühüm təməl daşı hesab olunur. Yeni ideya, texnologiya, yaxud məhsulun yaradılması və tətbiqi prosesi olan innovasiya cəmiyyətin məhsuldarlığını və rəqabət qabiliyyətini artırır. İnvestisiya isə bu innovasiyaların gerçəkləşməsi üçün tələb olunan resursların – maliyyə, texnoloji, insan kapitalı və infrastrukturun yönləndirilməsidir. Bu iki anlayışın sintezi olan innovasiya-investisiya fəaliyyəti kompleks və çoxşaxəli bir prosesdir. Bu fəaliyyətin xarakteri isə həm iqtisadi, həm də sosial-institusional amillərlə formalaşır və müxtəlif ölkələrdə fərqli təzahür edir. Qeyd etmək lazımdır ki, iqtisadi sistemlərin inkişafında aparıcı rol oynayan innovasiya-investisiya fəaliyyəti yüksək dəyər yaratsa da, eyni zamanda çoxsaylı risklər və qeyri-müəyyənliklərlə müşayiət olunur. Xüsusilə innovasiya-investisiya fəaliyyətinin birgə aparılması, yəni yeni texnologiyaların yaradılmasına və tətbiqinə yönəldilən maliyyə resurslarının istifadəsi həm texnoloji, həm maliyyə, həm də institusional risklərin qarşılıqlı təsiri nəticəsində olduqca mürəkkəb bir prosesə çevrilir. Bu baxımdan, innovasiya-investisiya fəaliyyətinin risklərinin müəyyənləşdirilməsi, təhlili və effektiv idarə olunması müasir elmi və praktiki yanaşmalar üçün aktual tədqiqat istiqamətlərindən biridir. İnnovasiya layihələrinin, adətən, yüksək qeyri-müəyyənlik dərəcəsinə malik olması, bu sahədə fəaliyyət göstərən müəssisə və investorlar üçün ciddi çağırışlar yaradır. Ənənəvi investisiya layihələrindən fərqli olaraq, innovativ layihələrin nəticələri öncədən proqnozlaşdırıla bilmir, belə ki, bazarın reaksiyası, texnologiyanın qəbul səviyyəsi, hüquqi baryerlər və ya sosial təsirlər layihənin taleyini müəyyən edə bilər. Bu səbəbdən risklərin düzgün qiymətləndirilməsi və azaldılması mexanizmləri innovasiya siyasətinin və innovasiya menecmentinin əsas hədəflərindən hesab olunur.

Qlobal miqyasda innovasiya-investisiya fəaliyyətinin xarakteri və risklərinin təsnifatı

İnnovasiya-investisiya fəaliyyəti bir çox nəzəri əsaslara söykənir. Buraya klassik iqtisadiyyatdan fərqli olaraq daha çox inkişaf etmiş müasir nəzəriyyələr, xüsusən də Şumpeterin innovasiya və təşəbbüskarlıqla bağlı yanaşmaları, Milli İnnovasiya Sistemləri (MİS) konsepsiyası, texnologiya transferi modelləri, bilik və texnoloji yayılma effektləri kimi yanaşmalar daxildir. Bu nəzəriyyələrə görə, innovasiya sadəcə texnoloji yeniliklə məhdudlaşmır, həm də təşkilati, idarəetmə, sosial və institusional sahələri əhatə edir. Bununla yanaşı, innovasiya-investisiya fəaliyyətinin uğurlu olması üçün siyasi sabitlik, hüquqi təminatlar, rəqabət mühiti, şəffaflıq və insan kapitalının keyfiyyəti kimi faktorlar da həlledici rol oynayır [6, s.178].

Dünya praktikasında innovasiya-investisiya fəaliyyətinin inkişafına təsir edən əsas amillərdən biri də rəqabət mühitidir ki, bu da qabaqcıl ölkələrdə daha çox özəl sektorun təşəbbüsü ilə aparılır. Məsələn, ABŞ-da və Avropa İttifaqı ölkələrində vençur kapitalı fondları və texnoloji startapların sayı çoxdur. Bu ölkələrdə universitetlərlə sənaye sektoru arasında sıx əməkdaşlıq mövcuddur, elmi tədqiqatların nəticələri kommersiyalaşdırılır və patentləşmə səviyyəsi yüksəkdir. Bununla yanaşı, dövlətin dəstək mexanizmləri – vergi güzəştləri, R&D (araşdırma və inkişaf) fondları, startap qrantları bu sahədə aktiv istifadə olunur.

Son illərdə Asiya ölkələri, xüsusən Çin, Cənubi Koreya və Sinqapur innovasiya-investisiya fəaliyyəti sahəsində böyük uğurlar əldə etmişdir. Çin yüksək texnologiyalara yönəlmiş böyük dövlət investisiyaları və texnologiya transferi ilə bu sahədə liderliyə can atır. Burada milli strategiyalar vasitəsilə yüksək texnoloji sahələrin inkişafı prioritetləşdirilir, yerli şirkətlər xarici texnologiyaları mənimsəyərək innovativ məhsullar hazırlayırlar. Bu prosesdə dövlətin rolu olduqca əhəmiyyətlidir. Məsələn, Çin hökuməti tərəfindən texnoloji parklar, inkubatorlar və innovasiya mərkəzləri yaradılır, elmi-tədqiqat institutları gücləndirilir və onların sənaye ilə əlaqəsi artırılır [7].

Bütün bu təcrübələr göstərir ki, innovasiya-investisiya fəaliyyəti institusional və struktur baxımından kompleksdir. Bu fəaliyyətin xarakterini müəyyənləşdirən əsas cəhətlər yüksək risk səviyyəsi, qeyri-müəyyən nəticələr və uzunmüddətli dövr tələb etməsidir. Belə ki, innovasiya layihələri tez nəticə vermir, uğur əldə olunana qədər müxtəlif mərhələlərdən keçməli olur: ideya mərhələsi, prototipləşdirmə, test, kommersiyalaşma və genişlənmə. Bu mərhələlərin hər birində uğursuzluq riski var və buna görə də investorlar üçün innovasiya layihələrinə sərmayə qoymaq müəyyən çətinliklər doğurur.

Ümumiyyətlə, innovasiya-investisiya fəaliyyətində risklər çoxşaxəlidir və müxtəlif kateqoriyalar üzrə təsnifatlaşdırıla bilər: xarici risklər, texniki risklər, bazar riskləri, maliyyə riskləri, texnoloji risklər, hüquqi və normativ risklər, institusional risklər, insan kapitalı ilə bağlı risklər və s. Özünəməxsus yanaşma tələb edən bu risklərin hər biri layihənin uğur qazanmasına mane ola bilər. Aşağıda verilmiş cədvəldə mənfi hadisələrin potensial mənbələrinin nəzərə alınması əsasında müəyyən layihə risklərinin strukturu təqdim edilib.

Bəzi riskləri bir az geniş araşdıraraq onların səbəb və nəticələri ilə yaxından tanış ola bilərik. Misal üçün, texnoloji risklər layihənin texniki uğursuzluq ehtimalı ilə əlaqədardır ki, onlar, əsasən, tədqiqat və inkişaf mərhələsində baş verir. Yeni texnologiyanın işləməməsi, gözlənilən nəticəni verməməsi və ya mövcud texnologiyalarla uyğunlaşmaması texnoloji risklərin əsas təzahürləridir. Məsələn, süni intellekt texnologiyasına yönəldilmiş bir innovasiya layihəsi ilkin mərhələdə nəzərdə tutulan səmərəliliyi təmin etməyə bilər və bu, ümumi investisiya itkilərinə gətirib çıxarar.

Bazar riskləri isə innovasiyanın kommersiyalaşdırılması zamanı üzə çıxır. Yəni məhsulun və ya xidmətin bazarda qəbul olunmaması, müştəri marağının aşağı olması və ya rəqabətli üstünlüyün olmaması bu riskin əsas göstəriciləridir. Bir çox startap və texnoloji şirkət məhz bu mərhələdə uğursuzluğa düçar olur. Çünki məhsulun bazar üçün uyğunluğu əvvəlcədən tam müəyyən edilə bilmir və bazar araşdırmalarının nəticələri də hər zaman real satış göstəricilərini əks etdirmir.

Maliyyə riskləri, xüsusən, kapitalın çatışmazlığı pul axınlarının qeyri-sabitliyi və ya əlavə maliyyələşmənin mümkün olmaması ilə bağlıdır. İnnovasiya-investisiya layihələrinin maliyyə dövrləri uzunmüddətli olur və bir çox hallarda gəlir yalnız illər sonra əldə olunur. Bu isə investorların

səbirli və risk qəbul edən olmasını tələb edir [8, s. 13]. Maliyyə risklərinin aradan qaldırılması üçün vençur kapital fondları, qrant proqramları və dövlətin riski bölüşməsi mexanizmləri önə çıxır.

Cədvəl

Layihənin risk strukturu

Xarici risklər	Bazar, məhsula olan tələbin qeyri-müəyyən səviyyəsi
	Hava şəraiti
	Normalar, layihənin həyata keçirilməsi zamanı düzəliş edilə bilən texnoloji tələblər
	Rəqiblərin fəaliyyəti
	Təchizatçılar və subpodratçılar, onların layihəyə təsir dərəcəsi
	Sifarişçilər, uzunmüddətli tərəfdaşlıq qurmaq imkanı
Texniki risklər	İstehsal prosesinə tələblər
	Texnologiyalar, onların minimum sapmalarla icra etmə imkanları
	Mürəkkəblik və interfeyslər
	Müəyyən olunmuş tələblər baxımından əldə edilmiş nəticənin keyfiyyəti
	Nəticələrin vaxtında olması və onların etibarlılığı
İnnovativ layihələrin idarə edilməsi ilə bağlı risklər	Layihənin planlaşdırılması
	Layihənin qiymətləndirilməsi
	Layihənin həyata keçirilməsinə nəzarət
	Layihə daxilində və xaricində əlaqə
Şirkətlə əlaqəli risklər	Məhdud maddi və əmək resursları
	Maliyyə resursları
	Eyni zamanda həyata keçirilən layihələrin prioritetləri

Hüquqi və normativ risklər - patentləşmə, lisenziyalaşdırma, tənzimləyici baryerlər və mülkiyyət hüquqları ilə bağlı məsələlər innovasiya layihələrini çətin vəziyyətə sala bilər. Qanunvericiliyin dəyişməsi, lisenziya tələblərinin sərtləşdirilməsi və ya texnoloji məhsulun hüquqi tanınmaması layihənin tamamilə dayanmasına səbəb ola bilər.

İnsan kapitalı ilə bağlı risklər isə bu sahədə çalışan kadrların təcrübəsizliyi, menecment bacarıqlarının zəifliyi və ya layihədən çıxmaları ilə bağlıdır. Xüsusilə kiçik startaplarda əsas təşəbbüskar və texniki heyətin layihəni tərk etməsi onun sonunu gətirə bilər. Bu səbəbdən insan kapitalı risklərinin qiymətləndirilməsi və motivasiya sisteminin düzgün qurulması innovasiya menecmentində mühüm yer tutur [9, s. 219].

Azərbaycanda innovasiya-investisiya mühiti və inkişaf imkanları

Ölkəmizdə innovasiya-investisiya fəaliyyətinə son illərdə daha çox diqqət ayrılır. Dövlət tərəfindən bu sahənin inkişafı üçün müxtəlif proqramlar və strategiyalar hazırlanır. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” bu istiqamətdə qəbul edilən əsas sənədlərdən biridir. Bu cür sənədlərdə, əsasən, innovasiya ekosisteminin yaradılması, insan kapitalının inkişafı, texnoloji infrastrukturların qurulması və innovativ sahibkarlığın dəstəklənməsi hədəf götürülür [1]. Təbii ki, Azərbaycanın innovasiya-investisiya mühiti hələ də inkişaf mərhələsindədir. Son illərdə Bakı və böyük şəhərlərdə texnoparklar, startap mərkəzləri, innovasiya hubları fəaliyyətə başlamışdır. Bu infrastruktur müəyyən dərəcədə elmi-tədqiqat və sahibkarlıq fəaliyyətini birləşdirir. Lakin bölgələrdə bu cür imkanlar kifayət qədər deyil, regionlararası fərqlər açıq şəkildə özünü göstərir. Bundan başqa, insan kapitalı sahəsində də problemlər qalmaqdadır. Əsas çətinliklərdən biri innovasiya sahəsində təcrübəli kadrların və tədqiqatçıların çatışmazlığıdır. Universitetlərdə tədqiqat yönümlü fəaliyyətin aşağı səviyyədə olması, elmi nəticələrin kommersiyalaşdırılması mexanizmlərinin zəifliyi və patentləşmə mədəniyyətinin olmaması da bu sahənin inkişafını ləngidir [2].

İnnovasiya-investisiya fəaliyyətinin xarakterik xüsusiyyətlərindən biri də onun nəticələrinin geniş sosial təsirə malik olmasıdır. Yəni bir şirkətin və ya təşkilatın apardığı innovativ fəaliyyət yalnız ona deyil, ümumi iqtisadiyyat üçün də fayda verir. Bu, “spillover” effekti adlanır. Azərbaycanda

bu effektin baş verməsi üçün universitet-sənaye əməkdaşlığının daha da inkişaf etdirilməsi, açıq innovasiya modellərinin tətbiqi və informasiya texnologiyaları sahəsində bilik paylaşımı platformalarının yaradılması zəruridir. Eyni zamanda, dövlətin bu sahədə normativ bazanı təkmilləşdirməsi və innovasiya fəaliyyətini tənzimləyən qanunların sadələşdirilməsi tələb olunur.

İnvestisiya mühitinin yaxşılaşdırılması da innovasiya fəaliyyətinin inkişafı üçün vacib şərtdir. Azərbaycanda makroiqtisadi sabitlik, geniş infrastruktur layihələri və enerji sektoru üzrə investorların marağını artıran təşəbbüslər olsa da, qeyri-neft sektorunda və xüsusən yüksək texnologiya sahəsində investorlar üçün cəlbedicilik hələ də istənilən səviyyədə deyil. Bu sahədə beynəlxalq təcrübəyə əsaslanaraq vençur kapital fondlarının yaradılması, innovativ startaplara vergi güzəştlərinin edilməsi və dövlətin innovasiya layihələrində riskləri bölüşməsi təşviq olunmalıdır. Eyni zamanda, tədqiqat institutlarının və universitetlərin “spin-off” layihələr yaratmasına şərait yaradılmalıdır.

Davamlı və effektiv innovasiya-investisiya fəaliyyətinə nail olmaq üçün insan kapitalının inkişafı da xüsusi önəm daşıyır. Azərbaycanın təhsil sistemində STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) sahələrinin inkişafı, məktəb və universitet səviyyəsində texnoloji biliklərin artırılması və praktiki təcrübə imkanlarının genişləndirilməsi bu istiqamətdə əsas hədəf olmalıdır. Texniki kolleclər, peşə məktəbləri və ixtisaslaşdırılmış kurslar vasitəsilə texniki sahələrə kadr hazırlığı artırılmalıdır. Bununla yanaşı, elmi tədqiqatçılar və innovasiya təşəbbüskarları üçün qrant proqramları və elmi stimullaşdırma mexanizmləri yaradılmalıdır [3].

İnnovasiya-investisiya risklərinin idarə olunması və Azərbaycanda mövcud vəziyyət

Risklərin effektiv idarə olunması innovasiya-investisiya prosesinin ayrılmaz tərkib hissəsidir. Bu həm strateji planlaşdırma, həm maliyyə menecmenti, həm də institusional yanaşmalarla həyata keçirilə bilər. Qlobal təcrübədə risklərin idarə olunmasında, əsasən, aşağıdakı mexanizmlərdən istifadə olunur: diversifikasiya (layihələrin və portfellərin şaxələndirilməsi), sığorta, dövlət zəmanətləri, inkubasiya və akselerasiya proqramları, vençur kapital fondları, dövlət-özəl sektor tərəfdaşlığı (PPP) modelləri, pilot layihələr və test bazarlarının qurulması.

Məsələn, ABŞ-da və Avropa İttifaqında dövlət və özəl sektor tərəfindən risklərin bölüşdürülməsi təcrübəsi geniş yayılıb. Startapların ilkin mərhələdə dövlət qrantları ilə maliyyələşdirilməsi, onların tədqiqat nəticələrini kommersiyalaşdırmağa qədər dəstəklənməsi və yalnız daha stabil mərhələyə çatdıqdan sonra özəl investorların cəlb olunması risklərin azaldılmasına xidmət edir. Bundan başqa, inkubasiya mərkəzlərində layihələrin əvvəlcə texniki və biznes baxımından qiymətləndirilməsi də uğursuzluq ehtimalını azaldır [4, s. 14].

Azərbaycanda isə innovasiya-investisiya risklərinin idarə olunması üçün institusional baza formalaşmaqdadır. Son illərdə ölkədə texnoparkların və startap ekosisteminin inkişaf etdirilməsi bu sahədə mühüm addım hesab oluna bilər. “Startup Azərbaycan”, “İNNOLAND”, “SABAH. HUB” və digər platformalar gənc təşəbbüskarlar üçün inkubasiya və mentorluq xidmətləri təqdim edir. Eyni zamanda, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) bu fəaliyyətləri dəstəkləyir. Buna baxmayaraq, innovasiya layihələrində risklərin sığortalanması, risk kapitalı bazarının formalaşması və hüquqi çərçivənin gücləndirilməsi kimi sahələrdə çatışmazlıqlar qalır.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda əsas risklərdən biri vençur kapitalı və “business angel” (biznes mələyi) investisiyalarının çox zəif inkişaf etmiş olmasıdır. Startaplar, adətən, maliyyələşməni ya şəxsi vəsaitlər hesabına, ya da dövlət qrantları ilə həyata keçirməyə çalışırlar. Bu isə bazar iqtisadiyyatı şərtləri daxilində layihələrin davamlılığını zəiflədə bilər. Bundan əlavə, investorların innovativ layihələrə etimad səviyyəsinin aşağı olması və müvafiq risk qiymətləndirmə alətlərinin geniş tətbiq olunmaması da bu sahədəki problemlərdəndir [5].

Risklərin idarə olunmasında informasiya və analitik dəstək də mühüm yer tutur. Risklərin proqnozlaşdırılması üçün məlumat bazalarının yaradılması, texnoloji trendlərin monitorinqi, bazar analizləri və hüquqi dəyişikliklərə dair erkən xəbərdarlıq sistemlərinin mövcudluğu məqsədəuyğun hesab olunur. Bu cür infrastruktur olmadan risklərin effektiv idarəsi mümkünsüzdür.

Nəticə

İnnovasiya-investisiya fəaliyyəti iqtisadi inkişafın, texnoloji tərəqqinin və sosial rifahın əsas hərəkətverici qüvvələrindən biridir. Bu fəaliyyətin xarakteri mürəkkəb, çoxşaxəli və strateji yanaşma tələb edən bir sahədir. Dünyada uğurlu təcrübələr göstərir ki, güclü institusional baza, şəffaf və rəqabətə əsaslanan mühit, yüksək insan kapitalı və dövlətin məqsədyönlü siyasəti bu sahənin inkişafına ciddi təkan verir. Azərbaycanda bu sahədə əhəmiyyətli addımlar atılsa da, qarşıda duran çağırışlar və imkanlar diqqətlə qiymətləndirilməli, kompleks və koordinasiyalı tədbirlər həyata keçirilməlidir. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və innovativ düşüncənin təşviqi üçün innovasiya-investisiya fəaliyyətinin inkişafı strateji əhəmiyyət kəsb edir. Bu baxımdan, innovasiya mühitinin yaxşılaşdırılması, təhsil və elm sahəsində islahatlar, həmçinin investisiya axınlarının stimullaşdırılması Azərbaycan üçün uzunmüddətli və davamlı inkişafa aparan əsas yol ola bilər.

İnnovasiya-investisiya fəaliyyəti yüksək dəyər yaratsa da, eyni zamanda yüksək risk səviyyəsi ilə də müşayiət olunur. Texnoloji, maliyyə, bazar və hüquqi risklər bu fəaliyyətin əsas çətinliklərini təşkil edir. Bu risklərin idarə olunması üçün yalnız texniki və maliyyə mexanizmləri deyil, həm də institusional və hüquqi çərçivələrin gücləndirilməsi tələb olunur. Qlobal təcrübə göstərir ki, uğurlu innovasiya-investisiya strategiyaları yalnız riskləri düzgün dəyərləndirən və onları idarə etməyi bacaran sistemlərdə mümkün olur. Bu baxımdan, Azərbaycan üçün əsas prioritetlər aşağıdakılar olmalıdır: innovasiya layihələrinə yönəlik risk kapitalı infrastrukturunun formalaşdırılması, startaplara maliyyə və hüquqi dəstəyin genişləndirilməsi, investor-mühafizə mexanizmlərinin gücləndirilməsi, eləcə də innovativ təşəbbüslərin erkən mərhələdə sığortalanması sisteminin tətbiqi. Eyni zamanda insan kapitalının inkişafı, təhsildə innovasiya menecmentinə dair bilik və bacarıqların artırılması da risklərin azaldılmasına birbaşa təsir edən amillərdəndir. Risklərə baxmayaraq, iqtisadiyyatın dayanıqlı inkişafı üçün innovasiya və investisiyalar davamlı şəkildə təşviq edilməli, onların risk menecmenti mexanizmləri elmi əsaslarla qurulmalıdır. Beləliklə, innovasiya-investisiya fəaliyyətində riskləri idarə etmək sadəcə təhlükədən qorunmaq deyil, həm də imkanları düzgün dəyərləndirilmək və strateji üstünlük əldə etmək vasitəsidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Nazirlər Kabineti. “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası”. Bakı, 2022.
2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. “İnnovasiya ekosistemi üzrə hesabat”. Bakı, 2023.
3. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi. “Startap ekosisteminin inkişafı üzrə təhlil”. Bakı, 2024.
4. K.İmanov. “İnnovativ inkişafda texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzləri” . Bakı, 2019.
5. KOBİA . “İnnovativ bizneslərin maliyyələşməsi və risklərin azaldılması yolları”, Bakı, 2023
6. Şumpeter J.A. The Theory of Economic Development. Harvard University Press, 1934.
7. World Bank. Innovation and Entrepreneurship in East Asia, 2022.
8. Gans, J. S., Stern, S. The Product Market and the Investment in Innovation. NBER Working Paper, 2017.
9. Chesbrough, H. Open Innovation: The New Imperative for Creating and Profiting from Technology. Harvard Business Review Press, 2006 .

Рафиг Меджид оглы Рзаев
Старший научный сотрудник
Института Экономики МНО АР
rafiqrzayev74@mail.ru

Основные характеристики инновационно-инвестиционной деятельности и управление рисками

Резюме

Цель исследования – исследование основных особенностей инновационно-инвестиционной деятельности и выявление аспектов, связанных с управлением рисками.

Методология исследования – в исследовательской работе использовались системный и другие подходы, включая метод логического обобщения и сравнительный анализ.

Значимость внедрения исследования – предметная область исследования позволяет выявить факторы, стимулирующие инновационно-инвестиционную деятельность, а также создать условия для управления рисками, возникающими в процессе этой деятельности.

Результаты исследования – теоретическое исследование факторов, влияющих на развитие инновационно-инвестиционной деятельности и управление рисками, а также особенностей их формирования, приводит к ряду выводов.

Оригинальность и научная новизна исследования – выявление аспектов развития инновационно-инвестиционной деятельности, важных для экономического роста и общественного благосостояния, повышения производительности и конкурентоспособности общества, экономического прогресса в целом, а также управление рисками этой деятельности, определяют научную актуальность исследования.

Ключевые слова: инновационно-инвестиционная деятельность, управление рисками, инновационные проекты, венчурный капитал, технологии, инновационно-инвестиционная среда, человеческий капитал.

Rafig Majid Rzayev
Senior Researcher, Institute of Economics, MSE AR
rafiqrzayev74@mail.ru

Main characteristics of innovation and investment activities and risk management

Summary

The purpose of the study is to investigate the main characteristics of innovation and investment activities and identify aspects related to risk management.

Methodology of the research - the research utilized systems and other approaches, including logical generalization and comparative analysis.

Importance of integration of research - the subject area of the study allows us to identify the factors stimulating innovation and investment activities and to create conditions for managing the risks arising during these activities.

Results of the research - theoretical study of the factors influencing the development of innovation and investment activities and risk management, as well as the specifics of their formation, leads to a number of conclusions.

Originality and scientific innovation of the research - identifying aspects of the development of innovation and investment activities that are important for economic growth and public welfare, increasing productivity and competitiveness of society, and overall economic progress, as well as managing the risks of these activities, determine the scientific relevance of the study.

Key words: innovation and investment activities, risk management, innovative projects, venture capital, technology, innovation and investment environment, human capital.